**“Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. “Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında” 2008-ci il aprelin 23-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 iyul 2008-ci il
№ 663-IIIQ

**Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında**

## SAZİŞ

Bundan sonra «Tərəflər» adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti,

iki dövlət arasında tarixən yaranan dostluq münasibətlərini nəzərə alaraq,

ticarət-iqtisadi, sənaye və elmi-texniki əməkdaşlığı inkişaf etdirmək istəyərək,

sənaye mülkiyyətinin səmərəli və adekvat mühafizəsinin bu cür əməkdaşlığın inkişafı üçün zəruri şərt olduğunu etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Bu Sazişin məqsədləri üçün «sənaye mülkiyyəti» anlayışı 1983-cü il 20 mart tarixində qəbul olunmuş, 1967-ci il 14 iyul tarixində Stokholmda yenidən baxılmış və 1979-cu il 2 oktyabr tarixində dəyişdirilmiş Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının (bundan sonra — Paris Konvensiyası) 1-ci maddəsində əks olunan mənanı daşıyır.

### Maddə 2

Tərəflər sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlığı bu Sazişə və onların iştirakçısı olduğu digər beynəlxalq müqavilələrə uyğun olaraq, qarşılıqlı fayda və bərabərlik əsasında həyata keçirir və inkişaf etdirirlər.

Tərəflərin əməkdaşlığı aşağıdakı istiqamətlərə yönəldiləcəkdir:

sənaye mülkiyyəti obyektlərinə dair hüquqların mühafizəsi və istifadəsi ilə bağlı məsələlərin tənzimlənməsinə;

Tərəflərin hər ikisinin iştirakçısı olduqları beynəlxalq müqavilələrə uyğun olaraq, sənaye mülkiyyətinin mühafizəsi sahəsində Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinin uyğunlaşdırılmasına;

sənaye mülkiyyətinin mühafizəsi sahəsində informasiya, normativ və digər sənədlər, həmçinin mütəxəssislər və iş təcrübəsi mübadiləsinə;

Tərəflərin qarşılıqlı razılığa gəldikləri digər əməkdaşlıq formalarına.

**Maddə 3**

Sənaye mülkiyyətinin mühafizəsi sahəsində bir dövlətin fiziki və hüquqi şəxsləri digər dövlətin ərazisində, bu digər dövlətin öz fiziki və hüquqi şəxslərinə hal-hazırda verilmiş və ya hüquqi aktlarla veriləcək hüquq və üstünlüklərdən, o cümlədən onun fiziki və hüquqi şəxslərinə verilmiş hüquqi mühafizə vasitələrindən və o həcmdə istifadə edəcəklər.

Tərəflər bu Sazişlə tənzimlənməyən məsələlər üzrə Paris Konvensiyanın müddəalarından istifadə edəcəklər.

**Maddə 4**

Tərəflər etiraf edirlər ki, Azərbaycan Respublikasının və ya Moldova Respublikasının istənilən fiziki və ya hüquqi şəxsi, əgər ixtira və ya faydalı modelin qanuni istifadəsi digər şəxslər tərəfindən SSRİ-nin ixtira şəhadətnaməsi verilmiş ixtira və ya faydalı modelə milli patentin verilməsi haqqında vəsatət verilməsi tarixinədək başlamışsa, həmin ixtira və ya faydalı modeldən lisenziya müqaviləsi bağlamadan istifadə etmək hüququna malikdir.

Belə halda haqqın ödənilməsi, ərazisində qeyd olunan ixtira və ya faydalı modelin istifadə olunduğu və ya olunacağı dövlətin normativ hüquqi aktları ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

**Maddə 5**

Bir dövlətin fiziki və hüquqi şəxsləri digər dövlətin ərazisində sənaye mülkiyyətinə aid olan patent fondlarından, kitabxanalardan, məlumatlar bankından onun öz fiziki və hüquqi şəxslərinə verilmiş şərtlərlə istifadə edəcəklər.

**Maddə 6**

Bu Sazişin həyata keçirilməsi üçün aşağıdakılar məsuliyyət daşıyırlar:

Azərbaycan Respublikasında — Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi;

Moldova Respublikasında — Moldova Respublikasının İntellektual Mülkiyyət üzrə Dövlət Agentliyi.

Bu Sazişin həyata keçirilməsi üçün səlahiyyətli dövlət orqanlarının əməkdaşlıq şərtləri və qaydaları onlar arasında xüsusi sazişlərlə müəyyən ediləcəkdir.

**Maddə 7**

Bu Sazişə müvafiq olaraq Sazişin həyata keçirilməsi üçün səlahiyyətli dövlət orqanları arasında yazışmalar rus dilində aparılacaqdır.

**Maddə 8**

Bu Sazişdən irəli gələn, yaxud onun yerinə yetirilməsi və təfsiri ilə bağlı məsələlər üzrə fikir ayrılığı yarandığı halda, Tərəflərin nümayəndələri onları məsləhətləşmələr və danışıqlar yolu ilə tənzimləyəcəklər.

**Maddə 9**

Bu Saziş Tərəflərin sənaye mülkiyyətinin mühafizəsi sahəsində digər ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlıqda iştirakına mane olmur.

**Maddə 10**

Tərəflərin qarşılıqlı razılığı əsasında, bu Sazişə onun ayrılmaz hissəsi olan və 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən, ayrıca Protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 11**

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildiriş alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanır və Tərəflərdən hər hansı biri diplomatik kanallar vasitəsilə yuxarıda göstərilən müddətin başa çatmasına ən azı 6 (altı) ay qalmış ona xitam vermək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə bildiriş vermədiyi halda avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır. Bu halda Sazişin qüvvəsinə belə bildirişin alındığı tarixdən 3 (üç) ay keçdikdən sonra xitam verilir.

Bu Sazişin qüvvəsinə xitam verilməsi, onun qüvvəsinə xitam verilənədək hər iki dövlətin fiziki və hüquqi şəxslərinə verilmiş və ya veriləcək mühafizə sənədlərinin qüvvəsinə toxunmur.

Bu Saziş Bakı şəhərində 2008-ci il 23 aprel tarixində Azərbaycan, moldov və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə ediləcəkdir.

Azərbaycan Respublikası Hökuməti adından
(imza)

Moldova Respublikası Hökuməti adından
(imza)